Müşfiqə. Təranə Kərimova: 28 illik Laçın həsrəti bitdi / Müşfiqə // Yeni Azərbaycan. - 2020. - 4 dekabr. - № 217. - S. 6.

“Azərbaycan xalqı 30 ildən bəri gözlədiyi böyük Qələbənin sevincini yaşayır. Azərbaycan qələbə qazandı! İşğal altında olan torpaqlarımız azad edildi. Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatları noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verildi. Bununla da Azərbaycanın ərazi bütövlüyü bərpa olundu”. Bu fikirləri qəzetimizə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Qadınlar Şurasının sədri Təranə Kərimova deyib.
O, bildirib ki, Azərbaycan əsgərinin göstərdiyi bu şücaət dünya hərb tarixinə yazılacaq: “Qəhrəman Azərbaycan Ordusu Ağdam və Kəlbəcərdən sonra bu dəfə də Laçına daxil oldu. Rəşadətli Ordumuzun bölmələri tərəfindən işğaldan azad olunan Laçın rayonunda Azərbaycan bayrağı qaldırıldı. Laçın rayonunun azad edilməsi Azərbaycan Prezidenti, qalib sərkərdə İlham Əliyevin uzaqgörən, düşünülmüş, düzgün taktika və strategiyasının parlaq nəticəsinin təzahürü kimi qiymətləndirilməlidir. 30 ilə yaxındır ki, Laçın həsrəti ilə yaşayırdıq. Artıq bu həsrət sona çatdı. Hər gün qələbə müjdəsi gəlir, azad olunan ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır”.
T.Kərimova vurğulayıb ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olunmasının ən başlıca səbəbidir: “Azərbaycan xalqı bundan sonra da öz Liderinə böyük etimad göstərəcək, bir yumruq kimi dövlətimizin başçısının ətrafında sıx birləşəcək. Yaşasın Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan! Yaşasın qalib Azərbaycan Ordusu!”

MÜŞFİQƏ